1_Layout 1 14.01.2019 17:36 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 01 (542)
15 yanvar 2019-cu il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2018-Ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

Yanvarın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib:

- Bu gün biz Nazirlər Kabinetinin iclasında 2018-ci ilin əsas yekunlarını müzakirə edəcəyik, eyni zamanda, bu il görüləcək işlər haqqında danışacağıq.

2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etmişdir. Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunmuşdur, ölkəmizin hərtərəfli dinamik inkişafı təmin edilmişdir. Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən, bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir.

Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən, heç bir beynəlxalq maliyyə qurumundan, heç bir ölkədən asılı deyil. İqtisadi müstəqillik bizə imkan verir ki, müstəqil siyasət aparaq, Azərbaycan xalqının maraqlarını müdafiə edək. Keçən il iqtisadi inkişaf baxımından uğurlu il olmuşdur. Deyə bilərəm ki, keçən il dərin iqtisadi islahatlar ili olmuşdur və bu islahatların nəticələrini indi hər kəs görür. Büdcəmizə daxilolmalar artıb. İqtisadi islahatların əsas məqsədi bu sahədə şəffaflığı tam təmin etməkdir, xoşagəlməz hallara qarşı mübarizəni gücləndirməkdir və beləliklə, ölkəmizin uğurlu inkişafını sürətləndirməkdir. Deyə bilərəm ki, beynəlxalq təşkilatlar, aparıcı maliyyə qurumları Azərbaycanda gedən prosesləri çox böyük maraqla izləyirlər və bizim işimizə çox yüksək qiymət verirlər. Mən xüsusi qeyd etməliyəm ki,

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir. İl ərzində biz 32 pillə irəliyə getmişik. Hesab edirəm ki, bu, rekord göstəricidir.

İnflyasiya cəmi 2,3 faizdir, əhalinin pul gəlirləri 9,2 faiz artıb. Görürsünüz ki, əhalinin gəlirləri inflyasiyanı üstələyir. Əgər biz 2017-ci ilə nəzər salsaq görərik ki, inflyasiya 12 faizdən çox idi, indi isə 2,3 faizdir. Manatın məzənnəsi sabitdir. Kənd təsərrüfatı 4,6 faiz artıb. Hesab edirəm ki, bu da yaxşı göstəricidir. Ölkə iqtisadiyyatına keçən il 17,2 milyard manat sərmayə qoyulub. Çox böyük rəqəmdir və ən sevindirici hal ondan ibarətdir ki, bu sərmayənin 11 milyard manatı, ondan da çoxu ölkəmizin qeyri-neft sektoruna qoyulan sərmayədir.

Biz keçən il valyuta ehtiyatlarımızı artırmışıq. Baxmayaraq ki, xərclərimiz də az olmayıb, eyni zamanda, biz valyuta ehtiyatlarımızı 3 milyard dollar məbləğində artıra bildik. Beləliklə, bu gün ölkəmizin valyuta ehtiyatları 45 milyard dollara bərabərdir. Keçən il 118 min daimi iş yeri yaradılmışdır. İşsizliyin aşağı səviyyədə saxlanması üçün bu, çox əhəmiyyətli məsələdir. İxracla bağlı yaxşı göstəricilər var. İxrac 36 faiz artıb. Ümumi rəqəmi götürsək, ixracımız 19 milyard dollara çatıb. Xarici ticarət balansında müsbət saldo - yəni, ixracın idxalı üstələməsi 8,6 milyard dollar təşkil edir.

Keçən ilin önəmli hadisələrini sadalamaq üçün bir neçə saat vaxt lazımdır. Mən bir neçə önəmli hadisəni qeyd etmək istərdim. Biz keçən il üçüncü peyki orbitə buraxdıq və Azərbaycan kosmik dövlət kimi öz mövqelərini daha da möhkəmləndirdi. Keçən il Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Bu, sözün əsl mənasında, tarixi hadisədir. Keçən il Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP layihəsi də işə düşdü və artıq fəaliyyətdədir.

İclasda Maliyyə Naziri Samir Şərifov, Əmək və əhalinin sosial müdafiəsi Naziri Sahil Babayev, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda yekun nitqi söyləyib:

- Mən əminəm ki, biz 2019-cu ildə də qarşımıza qoyduğumuz bütün vəzifələri icra edəcəyik. Bu il də ölkəmiz üçün uğurlu il olacaqdır. Mən giriş sözümdə qeyd etdim ki, keçən il dərin islahatlar ili olmuşdur. Bu islahatlar cəmi il ərzində özünü göstərdi, əlbəttə ki, gələcək illərdə özünü daha böyük həcmdə göstərəcək. Bu il infrastrukturla bağlı bir çox önəmli layihələr icra ediləcək. Bu il "Şimal-2" yeni böyük elektrik stansiyasının istifadəyə verilməsi gözlənilir.

Söz verdiyimiz kimi, keçən il Azərbaycanda qazlaşdırmanın səviyyəsi 95 faizə çatıb və hesab edirəm ki, bu, ən yüksək göstəricidir.

İçməli su ilə bağlı aparılan işlər nəticəsində 38 şəhərin su məsələsi tam şəkildə öz həllini tapıb. Hazırda 12 şəhərdə işlər gedir. Bu il beş şəhərdə işlər başa çatacaq.

Keçən il 2 min kilometr avtomobil yolu salınmışdır. Ümumilikdə, 2004-cü ildən bu günə qədər 15 min kilometr avtomobil yolu salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarında yol infrastrukturunun keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir.

Bu il sosial infrastrukturla bağlı işlər görüləcək. Məcburi köçkünlərin məişət problemlərinin həlli təmin ediləcəkdir. Bu il 5800 ailəyə yeni mənzillər verildi. Bu proses bu il də davam etdiriləcək. Bu günə qədər 300 min məcburi köçkün yeni evlərlə təmin edilibdir.

Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə evlərin verilməsi prosesi davam etdiriləcək. Əgər keçən il 626 mənzil verilibsə, bu il ən azı 800 mənzil veriləcək. Altı mindən çox ailə artıq dövlət tərəfindən evlərlə təmin edilib.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim Sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Artıq vəsaitin verilməsi prosesi başlanmışdır.

Keçən il 140-dan çox məktəb tikilib. Bu il 100-dən çox məktəbin tikintisi nəzərdə tutulur. Qəzalı vəziyyətdə olan məktəblərin yenidən tikilməsi hesab edirəm ki, maksimum iki il çəkə bilər. Bu il və gələn il biz bu proqramı başa çatdırmalıyıq.

Mən giriş sözümdə qeyd etdim ki, biz hərbi potensialımızın möhkəmləndirilməsi istiqamətində çox böyük işlər görmüşük. Bu il də istisna olmayacaq. Artıq yeni kontraktlar imzalanır. Əvvəlki illərdə imzalanmış kontraktlar əsasında ölkəmizə müasir silahlar, texnikalar gətirilir. Hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması, məişət problemlərinin həlli istiqamətində işlər gedir. Keçən il 400-ə yaxın hərbçiyə mənzil verilmişdir. Bu il də mənzillərin verilməsi nəzərdə tutulur.

Sənaye potensialımızın inkişafı ilə bağlı keçən ilin göstəriciləri çox müsbətdir. Sənayenin qeyri-neft sektorunda istehsal 9,1 faiz artıb.

Biz keçən il nəqliyyat sahəsi ilə bağlı çox yaxşı nəticələr əldə etmişik. Mənim keçən il Türkmənistana dövlət səfərim çərçivəsində 21 sənəd imzalanmışdır. Onlardan 9-u məhz nəqliyyat sektoruna aiddir.

İclasın sonunda bildirməliyəm ki, mən keçən il noyabr ayında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalamışam. Bu il biz İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edəcəyik. Keçən il Bakıda və şairin doğulduğu Şamaxı şəhərində Nəsimi günləri, Nəsimi festivalı keçirilmişdir. Bütün bunları və Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, mən 2019-cu ili "Nəsimi ili" elan edirəm.

"AZƏRTAC"

DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Yanvarın 12-də Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2018-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2018-ci ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər dövlətimizin başçısı tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili işlər nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili Qoşunlar komandanı ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

O da qeyd olunub ki, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərdə nizamnamə qaydalarına riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədənkənar münasibətə yol verilməyib.

Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran Daxili İşlər Naziri ötən hesabat ilində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

O bildirib ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

Nazir bu il Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarını tələb edib.

Nazir Daxili Qoşunların şəxsi heyəti adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, hərbi qulluqçular qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

2_Layout 1 15.01.2019 9:01 Page 1

"2018-ci İLDƏ DAXİLİ QOŞUNLARDA XİDMƏTİ-DÖYÜŞ FƏALİYYƏTİNİN YEKUNLARI"NA DAİR HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLİB

Yanvarın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində "2018-ci ildə Daxili Qoşunlarda xidməti-döyüş fəaliyyətinin yekunları"na dair Hərbi Şuranın iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi xidmətinin hərbi məsələlər sektorunun baş məsləhətçisi general-leytenant Elşad Babayev, Daxili Qoşunların Baş İdarəsinin idarə, şöbə, xidmət rəisləri, hərbi hissələrin komandirləri və komandir müavinləri iştirak ediblər.

Hərbi Şuranın sədri, Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov məruzə ilə çıxış edərək, bildirib ki, ötən il ölkəmizdə sosial-iqtisadi inkişafın dayanıqlığı və ən mühüm strateji vəzifələrdən biri olan davamlı ictimai-siyasi sabitlik təmin olunub.

Diqqətə çatdırılıb ki, ötən ildə dünyanın bir sıra ölkələrində baş verən proseslər bir daha bu reallığı təsdiqlədi ki, hər bir cəmiyyətin qarşısında duran ən mühüm vəzifələrdən biri məhz ictimai-siyasi sabitliyin təmin olunmasıdır. Hər il olduğu kimi bu il də ölkəmizdə ictimai-siyasi sabitlik qorunub saxlanılmış və Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur qurumlarından biri olan Daxili Qoşunlar üzərinə düşən vəzifələri tam həcmdə yerinə yetirmişdir.

2018-ci ilin digər əlamətdar hadisəsi kimi Daxili Qoşunların yaradılmasının 26 illik yubileyi qeyd edilib və diqqətə çatdırıb ki, mart ayının 12-də Baş İdarədə keçirilən Daxili Qoşunların yaranma gününə həsr olunmuş təntənəli mərasimdə Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin peşə bayramı münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırmış, yüksək döyüş hazırlığı olan bir qurum kimi Daxili Qoşunlar tərəfindən qarşıya qoyulan tapşırıq və vəzifələrin peşəkarcasına yerinə yetirdiyini xüsusi qeyd etmişdir.

Məruzəçi Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun tələb və göstərişləri əsasında ictimai qaydanın qorunmasında, ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə və xüsusi əməliyyatların keçirilməsində şəxsi heyət tərəfindən yüksək döyüş hazırlığının nümayiş etdirilməsini qeyd edib.

Daxili Qoşunların şəxsi heyətinin polis əməkdaşları ilə birlikdə ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində, cinayətkar qrupların zərərsizləşdirilməsində fəal iştirak etdiyi, xidməti-döyüş tapşırıqlarını tam həcmdə və keyfiyyətlə yerinə yetirdiyi, bir sıra möhtəbər idman və digər beynəlxalq tədbirlərdə müəyyən edilmiş tapşırıqların icrası tam həcmdə təmin olunduğu vurğulanıb.

İl ərzində Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşlarına köməklik məqsədilə bir sıra tədbirlərə də cəlb olunub. Nardaran qəsəbəsində baş vermiş məlum hadisələrlə əlaqədar, həmçinin Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə sərhədyanı bölgələrində "Sərhəd" şərti adlı birgə kompleks tədbirlərdə şəxsi heyəti tərəfindən polis orqanları ilə birgə hüquqi rejim təmin olunmuş və hal-hazırda davam etdirilməkdədir.

Bununla yanaşı, paytaxt və bölgələrdə keçirilən futbol oyunu, konsertlər və digər kütləvi tədbirlər zamanı şəxsi heyət ictimai qaydaların qorunmasına cəlb olunmuş və ictimai təhlükəsizlik təmin edilmişdir.

Ötən il ərzində qorunan obyektlərin etibarlı mühafizəsini və müdafiəsini zamanı cinayət, hadisə və kobud intizam pozuntusu hallarına yol verilməyib.

2018-ci il ərzində təlim Direktivinin tələbləri tam və keyfiyyətlə yerinə yetirilməklə hərbi qulluqçuların komandir, ixtisas, atəş və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi təmin edilmiş, bununla da hissə və bölmələrin döyüş hazırlığının, şəxsi heyətin nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılmasına, peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsinə nail olunmuşdur. Maddi-texniki tədris bazasının inkişaf etdirilməsi də prioritet məsələlərdən olmuşdur.

Cənab Komandan, eyni zamanda, il ərzində döyüş təliminin başlıca vəzifələrinin yüksək döyüş hazırlığının təmin edilməsindən, şəxsi heyətin nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılmasından, komandir və peşə hazırlığı səviyyəsinin yüksəldilməsindən ibarət olduğunu da nəzərə çatdırıb.

Polis orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi məqsədilə Daxili Qoşunların Təlim Mərkəzində "Meydanda ictimai asayişin qrup halında pozulması hallarının qarşısının alınması üzrə xüsusi vasitələrin tətbiqi dəstəsinin fəaliyyəti" mövzusunda birgə təlim keçirilmiş, müxtəlif növ silahlardan praktiki atışlar nümayiş etdirilmişdir. Təlimdə Daxili Qoşunların fəaliyyəti Daxili İşlər Naziri tərəfindən yüksək qiymətləndirilmişdir.

Məruzədə ötən il şəxsi heyətlə tərbiyə işinin qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına və hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldildiyi nəzərə çatdırılıb. Bildirilib ki, il ərzində respublikada baş verən ictimai-siyasi hadisələr diqqət mərkəzində saxlanılıb, Milli Lider Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsinə önəm verilərək, ictimai-siyasi hazırlıq məşğələlərində Ulu Öndərin həyat yolu, siyasi fəaliyyəti barədə hərbi qulluqçulara ətraflı məlumat verilib. Xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunan şəxsi heyətə tədbirlərin əhəmiyyəti və mahiyyəti, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının qorunması prinsipləri izah olunub, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmanın vacibliyi vurğulanıb.

Qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, qarşılıqlı münasibətlərdə nizamnamə qaydalarına riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq 2017-ci illə müqayisədə cinayət hadisələri, kobud intizam pozuntuları və xəsarətlərin sayı azalıb.

Cənab Komandan bildirib ki, 2018-ci il ərzində Daxili Qoşunların Baş İdarəsinə daxil olan müraciətlərin sayında ötən illə müqayisədə azalma müşahidə olunub. Daxil olmuş ərizələr üzrə tələb olunan tədbirlər görülüb, şikayətlər üzrə tam araşdırmalar aparılıb, gecikdirmələrə yol verilmədən vətəndaşlara müvafiq cavablar verilib.

Ötən il Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdən də söz açan general-leytenant Ş.Məmmədov qeyd edib ki, Daxili İşlər Nazirinin rəhbərliyi altında bu istiqamətdə işlər ardıcıl olaraq davam etdirilib, şəxsi heyətin kazarma-məişət şəraiti müasir standartlara uyğunlaşdırılıb, hərbi qulluqçuların, hərbi hissələrin və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində müəyyən işlər görülüb. Bu məqsədlə, bir çox hərbi hissələrdə hərbi və məişət obyektlərinin təmiri aparılıb, lazımi avadanlıqlarla təmin edilərək yenidən istifadəyə verilib. Nəqliyyat vasitələrinin sazlığı və düzgün istismarı təmin edilib, yol hərəkəti qaydalarının qarşısının alınması üçün dövlət yol polisi əməkdaşlarının iştirakı ilə məşğələlər təşkil olunub.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə 99713, 67987 və 12318 saylı hərbi hissələr komandanlığı müsbət nəticələr əldə edib. Onların fəaliyyətləri, ümumən, qənaətbəxş olub.

Məruzədə əldə edilmiş nailiyyətlərlə yanaşı, 2018-ci il ərzində xidməti-döyüş fəaliyyətində nəzərəçarpan bir sıra nöqsan və çatışmazlıqların mövcudluğu vurğulanıb. Onların aradan qaldırılması yolları hərbi hissələrdə xidməti-döyüş fəaliyyətinin yekunları ilə bağlı Baş İdarənin vəzifəli şəxslərinin iştirakı ilə keçirilmiş iclaslarda geniş müzakirə olunub. Həmçinin, il ərzində Hərbi Şuranın iclaslarında nöqsanların müzakirəsinə geniş yer verilib, aidiyyəti hərbi hissə komandanlıqları dinlənilib və nöqsanların planlı şəkildə aradan qaldırılması barədə tapşırıqlar verilib.

Qoşunların xidməti-döyüş fəaliyyətinin hər zaman Daxili İşlər Naziri general-polkovnik cənab Ramil Usubov tərəfindən dəstəklənərək, daima diqqətdə saxlanıldığını deyən general-leytenant Ş.Məmmədov çıxışının sonunda nəzərə çatdırıb ki, bu gün Daxili Qoşunların qarşıda duran vəzifələri uğurla yerinə yetirməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərdiyi diqqət sayəsində lazımi şərait yaradılıb, şəxsi heyət hərtərəfli dövlət qayğısı ilə əhatə olunub.

İclasda bir sıra hərbi hissə komandirlərinin və onların müavinlərinin hesabatları dinlənilib.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı yekun nitqi söyləyərək bildirib ki, Daxili Qoşunlar qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsinə həmişə hazır olacaq, hərbi hissə və bölmələrin döyüş hazırlığının daim yüksək saxlanılması, hərbi qulluqçuların peşə hazırlığının artırılması, sağlam mənəvi-psixoloji mühitin yaradılması təmin olunacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələr bundan sonra da layiqincə yerinə yetiriləcək, şəxsi heyət polis orqanlarının əməkdaşları ilə birgə ölkədə sabitliyin və ictimai asayişin keşiyində mətinliklə dayanacaq.

Mətbuat xidməti

QƏHRƏMANLIQ TARİXİMİZİN 20 YANVAR SƏHİFƏSİ

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər Sovet İmperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

İmperiya qoşunlarının yanvarın 19-da 20-nə keçən gecə Bakı şəhərinə qanunsuz yeridilməsi nəticəsində paytaxtda və respublika rayonlarında ölkəmizin müstəqilliyi, suverenliyi uğrunda haqq səsini ucaldan əli yalın sadə vətəndaşlardan 132 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər isə qanunsuz həbs olundu.

O müdhiş günlərdə Heydər Əliyevin - qüdrətli liderin yoxluğu gününən böyük həqiqəti kimi dərk olundu. 20 Yanvar günündə xalqının səsinə hər kəsdən əvvəl səs verən də Heydər Əliyev oldu. Milli Liderimiz Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını təhlükə qarşısında qoyaraq, yanvarın 21-də ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəldi, təcavüzə etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Xalqımızın Milli Lideri Heydər Əliyevin bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Milli Lider 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də bir sıra mühüm tədbirlər həyata keçirdi. Qısa müddətdə bütün şəhid məzarlarının üstünün götürülməsi və memorial kompleksin ucaldılması barədə göstəriş verdi. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Bakıda Vətən şəhidlərinə böyük ehtiramla xatirə kompleksi ucaldıldı. Şəhidlər Xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgahına çevrildi.

12318 SAYLI HƏRBİ HİSSƏNİN KOMENDANT BÖLÜYÜ ÖNCÜLLƏR SIRASINDADIR

12318 saylı hərbi hissənin komendant bölüyü hissənin döyüş bayrağının, anbarlarının, avtomobil parkının etibarlı mühafizə və müdafiəsini təmin edir.

Bölük komandiri baş leytenant Ramil Əsgərov bu istiqamətdə şəxsi heyətin hazırlığının xüsusi önəm daşıdığını qeyd etdi.

Məlum olduğu kimi, əsas vəzifəsi qarovul xidmətindən ibarət olan bölükdə xidmət edən hərbi qulluqçuların daha bacarıqlı, çevik və intizamlı olması vacibdir. Məhz bu səbəbdən gündəlik olaraq xidmətə yeni təyin olunmuş şəxsi heyətlə söhbətlər aparılır, onlara döyüş xidmətinin əhəmiyyəti izah olunur.

Hərbi hissənin komendant bölüyü ona tapşırılmış obyektlərin mühafizə və müdafiəsi zamanı yüksək nizam-intizam və döyüş hazırlığı nümayiş etdirir. Bölükdə xidmət etmək üçün əsgərlərin seçilməsi və hazırlanması hərbi hissə komandanlığı və komendant bölüyünün komandiri tərəfindən diqqət mərkəzində saxlanılır. Seçilmiş hərbi qulluqçulara bölüyün hərbi hissənin həyatındakı rolu, döyüş xidmətinin əhəmiyyəti və xüsusiyyətləri izah olunur, xidmət müddətində onların fəaliyyətinin əsasını təşkil edən Silahlı Qüvvələrin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin müvafiq maddələri öyrədilir, aidiyyəti olan digər normativ sənədlərin tələbləri çatdırılır.

Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması istiqamətində üzərinə böyük bir məsuliyyət düşdüyünü deyən baş leytenant R.Əsgərov həm bir komandir, həm də zabit kimi hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan bölük komandiri hərbi hissənin mühafizə və müdafiəsi üzrə xidmətin müvafiq postlarda aparıldığını bildirdi. Qeyd etdi ki, qarovul xidmətinin təşkili və aparılması zamanı xidmətə təyin olunmuş hərbçilərin seçilməsinə və hazırlanmasına çox ciddi yanaşılır. Sağlamlığı, mənəvi-psixoloji durumu qənaətbəxş olan və hərbi qulluqçuların döyüş xidmətinə buraxılması kursunun nəticələrinə əsasən seçilmişlər döyüş xidmətinə cəlb olunurlar. Xidmətə təyin olunmazdan əvvəl 15 dəqiqə müddətində qarovulun fəalları bölük komandirinin tərbiyə işləri üzrə müavini tərəfindən təlimatlandırılır. Bununla yanaşı, gündəlik olaraq tərbiyə bölməsinin zabitləri tərəfindən onlarla tərbiyəvi söhbətlər aparılır və mənəvi-psixoloji durumu qənaətbəxş olmayan hərbi qulluqçular aşkar olunarsa, dərhal xidmətdən kənarlaşdırılır. Bölük komandiri xidmətə cəlb olunan şəxsi heyətin atəş və fiziki hazırlığının diqqət mərkəzində saxlanıldığını söylədi. Əlavə etdi ki, bu məqsədlə mütəmadi olaraq praktiki təlimlər keçirilir, postlarda saatdarın ayıq-sayıq xidmət aparmasına, döyüş hesabatının vaxtlı-vaxtında çatdırılmasına, tərbiyə işinin təşkilinə, səliqə-sahmana, şəxsi heyətin sağlamlığına xüsusi önəm verilir, eləcə də silahların doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur.

Qarovul xidmətinin təşkil edilməsində və şəxsi heyətin mənəvi-psixoloji durumunun öyrənilməsində bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Həmid Rəhimovun da əməyi danılmazdır. Görülən işlərin nəticəsidir ki, komendant bölüyü ötən ilin yekun yoxlamasını uğurla başa vuraraq, bölüklər arasında fərqlənib.

Komendant bölüyünün komandiri baş leytenant R.Əsgərovla söhbət əsnasında o da məlum oldu ki, bölüyün şəxsi heyətinə hərbi hissə komandanlığı tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Belə ki, hər həftəsonu xidmətdə fərqlənən hərbi qulluqçuların tarixi abidələrə, Hacıqabul rayonunun Heydər Əliyev Mərkəzinə və muzeylərə gəzintiləri təşkil olunur. Bölükdə möhkəm hərbi kollektiv, komandirlər tərəfindən tabeliyindəkilərə qarşı tələbkarlığın və qayğının bərabər paylanması bu gün əldə olunan uğurlu nəticənin göstəricisidir.

baş leytenant Nigar Ağayeva

3_Layout 1 15.01.2019 10:13 Page 1

ŞƏHİDLƏRİMİZ

KÖKSÜNDƏ MƏRMİLƏR PARTLAYAN VƏTƏN TORPAĞINI MƏRDLİKLƏ QORUDU...

Neçə-neçə ananın köksünə dağ çəkildi,
Qəmdən neçə atanın beli vaxtsız büküldü.
Torpaq qan istəmirdi, torpağa qan töküldü,
Bu şəhid balaların ölən çağı deyildi...

Şəhid Qasımov Elşən Oruc oğlu

Bu ürək ağrıdan misralar Daxili Qoşunların şəhid hərbi qulluqçusu əsgər Qasımov Elşən Oruc oğlunun məzarı üzərindəki qara mərmərə həkk olunub. Müharibədən cənazəsi gətirilən igid oğulların valideynləri də Vətən fədailəridir. Onlar Vətən üçün ləyaqətli övladlar yetişdiriblər və həyatlarının sonuna kimi şəhidlərin xatirəsini yaşadaraq, ailə ocağını qoruyaraq, cəmiyyətə çox dəyərli bir vətənpərvərlik örnəyi aşılayırlar. Sizə ehtiramımız sonsuzdur, şəhid valideynləri, övlad itirmək nə qədər əzablı, ağrı-acılı olsa da, danılmaz bir həqiqətdir ki, torpaq uğrunda ölən varsa, Vətəndir! Vətən xalq olaraq varlığımızın məskəni, güc mənbəyimiz və qürur ünvanımızdır. Vətənin müqəddəsliyi və şəhidlik zirvəsi bir-birinə qırılmaz tellərlə bağlıdır. Şəhidlik zirvəsinə aparan yol Vətən sevgisindən başlayır.

Şərəfli ömür yaşamış şəhid Elşən Qasımov 1971-ci il oktyabr ayının 19-da Şəmkir rayonunun Çinarlı kəndində dünyaya göz açıb. Oruc Qasımov və Tamara Qasımovanın qurduğu ailənin ilk övladı, Firuzə, Gülər və Azərin böyük qardaşı olan Elşən qayğıkeş, ədəb-ərkanlı, həyatsevər, sadəliyi və həssaslığı ilə seçilən gənc kimi yaddaşlarda iz qoyub.

Qasımovlar ailəsi əslən Qərbi Azərbaycan torpağındandır. Ailə başçısı 1941-ci ildə Ermənistanın Vedi rayonunun Kolanlı kəndində anadan olub. Ötən əsrin 40-cı illərinin sonlarında Ermənistanda yaşayan soydaşlarımızın böyük bir qismi doğma yurdundan məcburi köçürülüb. Tarixən məlum hadisələr xalqımızın hansı çətin sınaqlardan keçdiyi barədə aydın təsəvvür yaradır. O.Qasımov erməni xisləti və məkrinə yaxşı bələd olan, doğma yurd həsrətini qəlbində yaşadan, həyatın hər üzünü görmüş şəxsdir. O, övladlarını, o cümlədən, Elşəni vətənpərvər ruhda tərbiyə edib. Elşən atasının nəsihətlərinə və məsləhətlərinə həmişə dəyər verib.

1978-1986-cı illərdə Elşən Şəmkir rayonu Kür qəsəbəsindəki (Qasımovlar ailəsi bir müddət burada yaşayıb - Y.A.) beynəlmiləl orta ümumtəhsil məktəbinin şagirdi olub. Orta təhsil şəhadətnaməsində yalnız təsviri incəsənət fənnindən ona "5" qiyməti yazılıb. Ailə üzvlərinin sözlərinə görə, rəsm sənətinə maraq göstərib, eləcə də fotoaparatla şəkil çəkib çıxarmaq hobbisi idi. 8 illik natamam orta təhsilini başa vurduqdan sonra Elşən Kür qəsəbəsindəki 164 nömrəli texniki peşə məktəbində təhsil alıb. 1989-cu ildə buranı rəngsaz-suvaqçı peşəsinə yiyələnərək bitirib.

1989-cu ilin noyabrında E.Qasımov Şəmkir Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir Rayon İdarəsi) tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Rusiya Federasiyasının Novosibirsk vilayətindəki Çistoozyornıy rayonunda yerləşən, SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının tabeliyində olan 7406 saylı hərbi hissədə hərbi xidmət keçib. Vətəndən uzaqda, sərt iqlimi olan bir ərazidə, çoxmillətli şəxsi heyətin sırasında, ciddi tələblər irəli sürülən, məsul vəzifələr yerinə yetirən qoşun növünün tərkibində xidmət etməsi Elşən üçün həm ciddi sınaq, həm də bir həyat məktəbi idi. O, hərbi xidmətdə bütün çətinliklərin öhdəsindən bacarıqla gəlib, yüksək nizam-intizamı ilə hörmət qazanıb, sərrast atıcı kimi də fərqlənib. 7406 saylı hərbi hissə komandirinin müvafiq əmri ilə Elşən "Xidmətdə fərqlənməyə görə" döş nişanı ilə təltif edilib. Ona hərbi hissədə digər mükafatlar da verilib.

1991-ci ilin dekabr ayında E.Qasımov hərbi xidmətdən tərxis olunaraq Vətənə qayıdıb. Evə qayıdarkən yolda onun həyatını təhlükə ilə üz-üzə qoyan fövqəladə hadisə baş verib. Belə ki, sərnişini olduğu Krasnovodsk-Bakı marşrutu ilə üzən gəminin paytaxt limanına çatmasına az məsafə qalmış partlayış nəticəsində xeyli insan həlak olub və yaralanıb. Gəmini bürüyən dəhşətli yanğından xilas olmaq üçün Elşən özünü dənizə atıb və üzərək sahilə çıxa bilib. Onun bir çox əşyaları gəmidə yanıb.

Həmin dövrdə Azərbaycan artıq öz müstəqilliyini elan etmişdi. SSRİ adlı dövlət süquta uğrayırdı. 1988-ci ildən başlanan Qarabağ münaqişəsi davam edirdi. Ölkədaxili ictimai vəziyyət də çox gərgin idi. Elşən üçün Vətənə dönməyin, çətin hərbi xidmətin arxada qalmasının, doğmalara qovuşmağın sevinci uzun sürmədi...

1992-ci ildə xalqımız yeni faciələrlə üzləşdi. Ermənilərin torpaqlarımızı işğal etdikləri və soydaşlarımıza qarşı vəhşiliklər törətdikləri bir gerçəklikdə o, vətənpərvər gənc kimi bunlara laqeyd qala bilməzdi. Ona görə də Elşən orduya yazılmağa, torpaqlarımızın müdafiəsində dayanmağa can atırdı.

1992-ci ilin avqust ayında E.Qasımov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarına hərbi xidmətə çağırılıb. Həmin ilin mart ayının 12-dən etibarən Daxili Qoşunlar ön cəbhədə döyüş əməliyyatlarında iştirak edirdi. Döyüş zonasının müxtəlif istiqamətlərində qoşunların hərbi hissələri yerləşdirilmişdi. Elşən qoşunların 5456 saylı hərbi hissəsinin (hazırda 99713 saylı hərbi hissə) şəxsi heyətinin sıralarına qəbul olunub və qısa müddət ərzində Bakı yaxınlığındakı hərbi poliqonda döyüş təlimi keçdikdən sonra ön cəbhəyə göndərilib. Onun qısamüddətli döyüş yolu Ağdam rayonu ərazisindən keçib. Burada Əsgəranətrafı yaşayış məntəqələri və Fərrux yüksəkliyi istiqamətində düşmənlə təmas xətti boyu mövqelərdə torpaqlarımızın müdafiəsində dayanıb, döyüş tapşırıqlarının yerinə yetirilməsinə cəlb olunaraq qətiyyətlə vuruşub. Onun döyüşçü yoldaşı olmuş, müharibə veteranı Nüsrət Hüseynovun bildirdiyinə görə, Elşənlə ön cəbhədə ilk gündən birlikdə olublar. Məmməd Hacıyevin (hazırda Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın katibi, polkovnik - Y.A.) komandiri olduğu taborun sıralarına qəbul ediliblər. Taborun şəxsi heyətində yüksək döyüş ruhu vardı. Elşəni cəsur və qorxmaz hərbi qulluqçu kimi xatırlayan Nüsrətin dediyinə görə, onun son döyüşü 1992-ci il sentyabrın 26-da Fərrux yüksəkliyi ərazisində olub. Cinli kəndi yaxınlığındakı postlardan başlanan hücum döyüşü Fərruxun yamaclarında daha şiddətli xarakter alıb. Düşmən tankından atılan mərminin partlaması nəticəsində qəlpələr Elşəni başından ağır yaralayıb və o, həlak olub. Onun və digər şəhidlərin meyitləri ərazidən çıxarılıb.

1992-ci ildə tərtib olunmuş IV-JQ 303707 nömrəli ölüm haqqında şəhadətnamədə də əsgər E.Qasımovun 26.09.1992-ci ildə Fərrux yüksəkliyində döyüşdə həlak olduğu qeyd edilib.

Əsgər E.Qasımov Şəmkir rayonunda dəfn olunub. Məzarının üzərində ölüm tarixi deyil, dəfn tarixi həkk edilib. Kür qəsəbəsində şəhidin adına küçə var. Elşənin əmisi oğlu Arif Məmmədov da respublikamızın ərazi bütövlüyünün müdafiəsi uğrunda şəhid olub. Polis əməkdaşı olmuş A.Məmmədov Şəmkir rayonunun ilk şəhididir.

Şəhid E.Qasımovun ailəsi hazırda Çinarlı kəndində yaşayır. Ailə 1995-ci ildə daha bir sarsıntı yaşayıb, şəhidin bacısı Firuzə xəstəlikdən vəfat edib. Elşənin anası T.Qasımova 2010-cu ildə dünyasını dəyişib. Ailəyə Prezident təqaüdü verilir. Şəhidin qardaşı oğlu onun adını daşıyır, o, tələbədir.

1995-ci ildə işıq üzü görmüş, Şamxal Rüstəmin müəllifi olduğu "Ölüm sevinməsin qoy!.. Şəmkir şəhidləri" kitabında şəhid hərbi qulluqçumuz haqqında məlumat xarakterli qısa material dərc edilib.

Əsgər E.Qasımov və minlərlə şəhidimizin işıqlı xatirəsi daim qəlbimizdə yaşayacaqdır.

Allah rəhmət eləsin!

Yalçın Abbasov

VƏTƏNƏ ŞƏRƏFLƏ XİDMƏT ETMƏKDƏN QÜRUR DUYURAM!

17072 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan çavuş Mustafa Şəmşiyev 1992-ci il aprelin 3-də Ağstafa rayonunun Soyuqbulaq kəndində anadan olub.

Orta təhsilini 2010-cu ildə həmin kənddə yerləşən M.Omarov adına məktəbdə alıb. Təhsilini tamamladıqdan sonra 2010-2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunda atıcı vəzifəsinə təyin olunub. 2014-cü ildən isə xidmətini 17072 saylı hərbi hissədə davam etdirir. Hazırda hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun yarımqrupunda atıcı-qumbaraatan köməkçisi vəzifəsində xidmət edir.

Uşaq yaşlarından idmanın sərbəst güləş növü ilə məşğul olur. Dəfələrlə Daxili Qoşunların birinciliyi uğrunda keçirilən yarışlarda iştirak edib və müxtəlif mükafatlar qazanıb.

Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. Ona göstərilən etimadı hər zaman doğrultmağa çalışır. Xidmətində hər zaman məsuliyyəti ilə seçilən hərbi qulluqçumuz Daxili Qoşunlarda xidmət etməkdən qürur duyduğunu bildirir: "Ən böyük arzum Vətənim Azərbaycana şərəf və ləyaqətlə xidmət etmək, torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda hərbi əməliyyatlarda iştirak etməkdir".

Onu da qeyd edim ki, çavuş M.Şəmşiyev 2017-ci ildə zoğali beret uğrunda keçirilən yarışlarda da iştirak edərək müvəffəqiyyət qazanıb və ona zoğali bereti daşımaq hüququ verilib.

Hərbi sənətin sirlərinə dərindən yiyələnmək üçün daim əzmlə çalışan hərbi qulluqçumuz bundan sonra da hissə komandanlığının ona olan etimadını doğruldacağına, qarşıya qoyulan tapşırıqların məsuliyyətini dərindən dərk edərək, hər zaman əzmkarlıq göstərəcəklərinə söz verdi.

baş leytenant Xədicə Hacızadə

HƏRBÇİ LƏYAQƏTİ ...

Ali Hərbi Məktəbdə artıq yeddi ildir ki, xidmət edən baş çavuş Salamat Rufiyev nümunəvi, peşəkar hərbi qulluqçularımızdan biridir. O, 1986-cı il dekabr ayının 12-də Lerik rayonunun Qosmalian kəndində dünyaya göz açıb. Orta təhsilini böyüyüb boya-başa çatdığı kənd məktəbində alıb, 2005-ci ildə məktəbi bitirib. Elə həmin ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Salamat Daxili Qoşunların indiki Ali Hərbi Məktəbinin ərazisində yerləşən 25031 saylı hərbi hissəsində əsgər olub. 2007-ci ildə müddətli həqiqi hərbi xidmətini başa vurarkən o, artıq həyat yoluna hərbçi kimi davam edəcəyinə qərar vermişdi. Beləliklə, bir müddət sonra, yəni 2011-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi 25031 saylı hərbi hissənin tərbiyə bölməsində kitabxana rəisi vəzifəsinə təyin olunur.

2015-ci ildə Ali Hərbi Məktəbin tərbiyə bölməsində klub rəisi olub. 2017-ci ildən tərbiyə bölməsində mütəxəssisdir.

Öz üzərində daim çalışan, peşəkarlıq vərdişlərini artıran baş çavuş S.Rufiyev Ali Hərbi Məktəbin ictimai həyatında yaxından iştirak edən hərbi qulluqçudur. Məktəbdə təşkil olunan tədbirlər zamanı fotoçəkilişlərin aparılmasını təmin edir. Şəxsi heyətin mədəni-kütləvi təbliğat, təşviqat vasitələri ilə təmin edilməsinə, texniki təbliğat, mədəni-maarif əmlaklarının düzgün istifadə olunmasına, onların vaxtlı-vaxtında alınıb gətirilməsinə və təmir edilməsinə nəzarət edir. Vaxtaşırı mövcud olan əmlakları yoxlayır, hesabatını aparır, hesabdan silinməli olan əmlaklar barədə tərbiyə bölməsinin rəisinə məlumat verir. Bölüklərdə və qarovulda televizor, radio və başqa texniki vasitələrdən istifadə olunmasına, onların texniki sazlığına fikir verir.

Hərbi qulluqçu kimi üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsi onun öz işinə məsuliyyətindən irəli gəlir. Bu səbəbdəndir ki, cari ildə Ali Hərbi Məktəbdə keçirilən ümumi inspeksiya yoxlaması zamanı müsbət nəticə əldə edib. İnsani xüsusiyyətlərinə görə də kollektivdə hörmət qazanan, iki övlad atası olan baş çavuş S.Rufiyev Azərbaycan bayrağının dalğalandığı hər yerdə xidmətin şərəfli olduğunu vurğuladı və bir hərbçi kimi bundan sonra da verilən bütün tapşırıqların icrasına məsuliyyətlə yanaşacağına söz verdi.

baş leytenant N.Ağayeva

HƏRBİ XƏBƏRLƏR

Serbiya Ordusunun yeni döyüş maşını - "Lazar-3"

Serbiya Silahlı Qüvvələri "Lazar-3" zirehli döyüş maşınlarını silahlanmaya qəbul edib.

8×8 təkər formuluna malik "Lazar-3" döyüş ağırlığı və geniş daxili həcmi ilə diqqət çəkir. Zirehli maşının çəkisi 24-26 ton, döyüş ağırlığı 28 tondur. Maşın komandir, sürücü və atıcı daxil olmaqla 12 heyəti daşıma qabiliyyətinə malikdir, məsafədən idarə olunan döyüş modulu ilə təchiz olunub. Maşının uzunluğu 7920 mm, eni 2950 mm, hündürlüyü 2320 mm-dir.

Rusiya yeni tapançanın sınaqlarını yekunlaşdırıb

Rusiyanın Dəqiq Maşınqayırma Mərkəzi Elmi-Tədqiqat İnstitutu (SNİİTOÇMAŞ) 9×21 mm çaplı patronlarla atəş açacaq perspektiv tapançanın sınaqlarını başa çatdırıb.

Testlər 2018-ci ilin avqust ayında SNİİTOÇMAŞ-ın sınaq bazasında keçirilib. Sınaqlarda tapançanın iqlim və mexaniki

təsirlərə davamlılığı, sifarişçinin normativ-texniki sənədlərinə uyğunluğu yoxlanılıb. Ballistik xüsusiyyətləri tədqiq olunub.

Gürcüstanın yeni mobil minaatan kompleksi yaradılıb

Gürcüstanın "STC Delta" Mərkəzi tərəfindən "Didqori Meomari" zirehli maşının bazasında yaradılmış 120 mm-lik minaatan kompleksin ilk ictimai təqdimatının fevral ayının 17-dən 21-dək Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabi şəhərində "İDEX-2019" sərgisində keçirilməsi planlaşdırılır.

4×4 təkər formuluna malik "Didqori Meomari" zirehli avtomobilin uzunluğu 7240 mm, eni 2350 mm, döyüş ağırlığı 8200 kq-dır. 300 at gücündə mühərrikə malik maşının gediş ehtiyatı 500 km-dir.

"STC Delta" tərəfindən istehsal edilmiş 120 mm-lik minaaatan İspaniyanın "Alakran" mobil minaatan kompleksinin konsepsiyasına bənzər şəkildə maşının arxa bölməsində yerləşdirilib.

Minalar silaha əllə ötürülür.

"Azeridefence"

4_Layout 1 15.01.2019 9:07 Page 1

VƏTƏN SƏNƏ GÜVƏNİR, AZƏRBAYCAN ƏSGƏRİ!

Həmişə xalq öz əsgərinə güvənc yeri, müdafiəçisi, əcdadlardan miras qalan şərəfli hərbi ənənələrin davamçısı nəzəri ilə baxıb. Bu gün də belədir. Bayatılar, dastanlar, şeirlər, atalar sözləri və digər bədii nümunələrimizdə əsgər sədaqəti, şərəfi və mərdliyi dolğun şəkildə vəsf olunub. Doğma dilimizdə əsgər sözü qeyrət, ləyaqət, dəyanət, hünər və rəşadət məfhumları ilə bütövləşib. Milli-mənəvi dəyərlərimiz əsgərə ehtiram göstərməyi, onun nüfuzunu uca tutmağı aşılayır.

Hər bir əsgər bir ailənin yetirməsidir və onun millətsevərlik, vətənpərvərlik əqidəsi, qeyrət hissi valideynlərinin verdikləri tərbiyə əsasında formalaşıb. Bu prosesdə müəllimlərin də layiqli töhfəsi inkar edilə bilməz. Sonradan hərbi xidmət zamanı isə hər bir gəncin əsgər olaraq mənəvi tərbiyəsi daha da təkmilləşir və dolğun məzmunu ifadə edir. Belə ki, həmin mənəvi tərbiyə əsgərin mənəvi gücünə çevrilir, onun iradə və qətiyyətinin yenilməzliyinə bünövrə olur. Danılmaz bir həqiqətdir ki, əsgərlərin vətənpərvərlik tərbiyəsində valideynlər, müəllimlər və komandirlərin vəhdət təşkil edən əməyi son nəticədə onların yüksək milli və döyüş ruhunun əsasını möhkəmləndirir.

Azərbaycan əsgərinin mənəvi keyfiyyətləri zəngindir. O, cəsurdur, ləyaqətlidir, andından dönməzdir, mərhəmətlidir, inanclıdır, dözümlüdür, valideynlərinə ehtiramlıdır, ailəyə böyük dəyər verəndir, yoldaşlıqda etibarlıdır, fədakardır, komandirlərə tabeliyini düzgün dərk edəndir, müsbət nümunədən ruhlanandır, istedadlıdır, təmkinli və təvazökardır, səliqəlidir, idmansevərdir və sair. Bu keyfiyyətlərin daşıyıcısı olan əsgərlərlə el dilində deyildiyi kimi, "dağı dağ üstünə qoymaq olar".

1992-1994-cü illər və 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan əsgəri qəhrəmanlıq nümunələri nümayiş etdirdi, doğma torpağının toxunulmazlığı naminə şəhidlik zirvəsinə ucaldı. Bir əsgərin şəhidlik zirvəsinə ucalması onun aid olduğu xalqın mənəvi ucalığı deməkdir. Hərb tarixi göstərir ki, Vətən naminə mübariz əsgər yetişdirən xalqı məğlub etmək mümkün deyil, doğma torpağı uğrunda canını fəda edən əsgər isə həmişə qalibdir.

Azərbaycan əsgəri döyüş mövqeyində düşmənlə üz-üzə, sərhədlərimizin keşiyində, asayişimizin, əmin-amanlığımızın mühafizəsində dayanıb. O, hərbi xidmət keçməyi şərəf bilir, əynindəki hərbi forma ilə qürur duyur, hərbi xidmətin hər günündə hərbi biliklərə daha da əzmlə yiyələnir, döyüşçü məharətini inkişaf etdirməyə çalışır, bir an belə unutmur ki, yağı tapdağı altında olan yurdlarımız onun yolunu gözləyir.

Bizim əsgər xalqımızın dar günündə həmişə onunla birlikdə olub və özünə güvəni çətin sınaqlarda qazanıb. O, həmçinin, öz xalqının nüfuzunu beynəlxalq sülhyaratma əməliyyatlarında ucaldıb, möhtəşəm idman yarışlarında bizə qələbə sevinci bəxş edib, müqəddəs bayrağımızı zirvəyə qaldırıb. Qeyd olunan uğurlar bu gün də davam edir.

Azərbaycan əsgəri Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə sadiqdir və onun şəxsi heyətə göstərdiyi böyük qayğıdan ruhlanır. Ali Baş Komandanın oğlu da bu gün əsgər olaraq hərbi xidmətdədir. Bu faktın özü cəmiyyətimizdə vətənpərvərlik ruhunun yüksəldilməsi, gənclərin hərbi xidmətə həvəsləndirilməsi, hərbi ənənələrin inkişaf etdirilməsi, habelə hərbi xidmətin nüfuzunun daha da artırılması baxımından mühüm amildir.

Dövlətimizdə hərbi xidmət borcunu vicdanla yerinə yetirən əsgərə mənəvi dəyər verilməsi, Konstitusiyada və qanunvericilikdə hərbi xidmətlə bağlı müəyyən olunan vəzifələrin yerinə yetirilməsinin xüsusi diqqət mərkəzində saxlanılması, hərbi potensialımızın gücləndirilməsi yönündə nailiyyətlər ordu quruculuğunda önəmli təşviqedici cəhət kimi xarakterizə edilə bilər.

Bu gün Azərbaycan əsgərinin adı beynəlxalq hərbi analitiklərin təhlillərində güclülər sırasında qeyd olunur. Çünki bizim əsgər peşəkardır, döyüş qabiliyyətlidir, müasir texnika və silahların sirlərinə mükəmməl yiyələnib, hərbçilik məharəti onun tarixi köklərindən qaynaqlanır, üzərinə düşən əsas missiya da haqq-ədalətə söykənir.

Azərbaycan əsgəri tarixdə şərəfli iz qoyub, bu gün də dövlətin və xalqın etimadını doğruldur, gələcəkdə də dəyanəti və əzmkarlığı ilə hərb meydanında öz sözünü deyəcəkdir.

Yalçın Abbasov

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları sırasından seçilirlər.

Abituriyentlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə; qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərində bədənin döşəmədən qaldırılması - 18 dəfə, arxası üstə uzanmış halda döşəmədən bədənin qaldırılması - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı müsabiqədə iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar test üsulu ilə, 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş abituriyentlər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

Məzunlara müvafiq hərbi ixtisaslarla bərabər "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və "leytenant" hərbi rütbəsi verilərək Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər. İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2019-cu ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən abituriyentlər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4.) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;

- ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);

- oxuduğu təhsil müəssisəsi tərəfindən Daxili Qoşunların Baş İdarəsinə təqdim olunması üçün verilmiş xasiyyətnamə;

- 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).

Ərizə və sənədlərin qəbulu 2019-cu il martın 1-dən aprelin 10-dək (bayram və bazar günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcək.

Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.

HƏKİM MƏSLƏHƏTİ

SUÇİÇƏYİ XƏSTƏLİYİ VƏ ONUN PROFİLAKTİKASI

Tənəffüs yolları infeksiyaları - tənəffüs orqanlarının selikli qişasının zədələnməsi və hava-damcı yoluxma mexanizmi ilə xarakterizə olunur. Bu qrup xəstəliklər aerozol antroponozlar da adlanırlar, çünki yalnız insanlarda müşahidə edilirlər. Yoluxma mexanizmi 3 mərhələdən ibarətdir:

- 1-ci mərhələ törədicilərin yoluxmuş orqanizmdən ifraz olunması nəfəsvermə, danışma, öskürmə, asqırma zamanı həyata keçirilir.

Törədicilər yoluxmuş orqanizmdən selik və ağız suyunun damcıları ilə havaya düşür və orada mikrob aerozolu əmələ gəlir.

- 2-ci mərhələ aerozolun damcı, havanüvəcik və toz fazaları ilə realizə olunur.

- 3-cü mərhələdə törədicilərin insan orqanizminə daxil olması nəfəs aldıqda baş verir.

Mövsümlə əlaqədar olaraq yüksək yoluxdurucu qabiliyyətinə malik olan hava-damcı infeksiyalarından biri də suçiçəyi xəstəliyidir.

Suçiçəyi intoksikasiya, qısa qızdırma dövrü və ləkəli-suluqlu səpkilərlə özünü göstərən, xoşxassəli virus infeksiyasıdır.

Epidemiologiyası - suçiçəyi inkubasion dövrün 10-cu günündən axırıncı səpkilərin 5-ci gününə qədər xəstələrdən, bəzən kəmərləyici dəmrovu olanlardan keçir. Antroponoz xəstəlikdir, yüksək dərəcədə kontagiozdur, hava-damcı yolu ilə yayılır.

Klinikası: xəstəliyin inkubasion dövrü 10-21 gün çəkir. Səpkidən bir neçə gün əvvəl subfebril qızdırma, narahatlıq, iştahanın və yuxunun pozulması şəklində prodromal dövr və skarlatinaya, qızılcayabənzər səpkilər formasında qeyd edilir. O, ilk günlər üzdə, başın tüklü hissəsində, sonralar isə gövdədə və ətraflarda eyni zamanda görünür, qaşınma verir. Səpkilər öz inkişafında bir neçə mərhələ keçir, əvvəlcə oval formalı ləkələr əmələ gəlir, sonradan ləkələrin mərkəzində papula əmələ gəlir ki, bu da içərisində şəffaf maye olan vezikulaya çevrilir. Tədricən quruyaraq açıq-qəhvəyi rəngli qartmaqlar əmələ gəlir ki, o da yerində heç bir iz qoymadan 6-8 gündən sonra qopub düşür.

Müalicəsi simptomatikdir, ikincili in-



feksiyanın profilaktikası məsləhət görülür. Suluğun tez quruması üçün 1-2%-li kalium permanqanat və ya brilyant yaşılın 1%-li spirt məhlulu sürtülür.

Mövsümlə əlaqədar olaraq, Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunması istiqamətində müvafiq profilaktik tədbirlər həyata keçirilir. Belə ki, tibb xidmətinin fəaliyyətinin əsas istiqaməti hava-damcı infeksiyalarının şəxsi heyət arasında əmələ gəlməsinin və yayılmasının qarşısının alınmasına, eləcə də xəstələnmələrin erkən aşkarlanmasına, xəstələrin qospitalizasiyasına və müalicəsinə, həmçinin, digər əks-epidemik tədbirlərin həyata keçirilməsinə yönəlib. Hərbi hissələrdə aparılan profilaktik tədbirlərə aşağıdakılar aiddir:

- qarovul xidmətinin aparılması, səhra məşğələləri və təlimlərinin keçirilməsi, habelə açıq havada texnikaya qulluq və digər işlərin görülməsi zamanı şəxsi heyətin sağlamlığının qorunmasına yönəlmiş tədbirlərin icrasına nəzarətin gücləndirilməsi;

- şəxsi heyətin hamamda yuyunmasının təşkili zamanı havanın hərarətinə nəzarət üçün termometrlərin mövcud olması, habelə havanın hərarətinin soyunub-geyinmə otağında 25, yuyunma otağında 30, digər otaqlarda isə 18 dərəcədən aşağı olmamağının təmin edilməsi;

- məzuniyyət və ezamiyyətlərdən, o cümlədən, qospitaldan qayıdanların tibbi baxışdan keçirilməsinə nəzarətin artırılması;

- səhər baxışları və axşam yoxlanışlarında xəstələrin (və ya xəstəliyə şübhəlilərin) aktiv aşkarlanması və dərhal təcrid edilməsi üçün termometriyanın təşkil edilməsi və nəzarətin gücləndirilməsi;

- yeməkxanalarda xörəklərin hazırlanması və isti halda paylanması zamanı sanitariya qaydalarına, o cümlədən, yemək və çay qablarının, eləcə də digər mətbəx avadanlıqlarının yuyulmasına və dezinfeksiyasına nəzarətin artırılması;

- hərbi ticarət şəbəkəsinə məxsus yeməkxana və çayxanaların mövsümlə əlaqədar olaraq fəaliyyətlərinin hərbi hissələrin ictimai nəzarət komissiyaları tərəfindən mütəmadi olaraq ciddi yoxlanılması, aşkar olunmuş sanitar pozuntu və ya hansısa çatışmazlıq barədə akt tərtib olunaraq müvafiq tədbir görülməsinin təşkil edilməsi;

- hava şəraiti nəzərə alınaraq çöl məşğələlərinin keçirilməsinə üstünlük verilməsi;

- şəxsi heyətin yerləşdirilməsində sıxlığa yol verilməməsi üçün tədbirlər həyata keçirilməsi və daima nəzarətdə saxlanılması.

Daxili Qoşunların Baş İdarəsində
Tibb xidmətinin rəisi
tibb xidməti polkovniki
Rasim Qüdrətov

Allah rəhmət eləsin

Daxili Qoşuların Komandanlığı mayor Əfqan Qurbanlıya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16077 saylı hərbi hissənin komandanlığı mayor Yusif Mehdiyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17072 saylı hərbi hissənin komandanlığı baş leytenant Arzu Rəsulova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası qoşunların ehtiyatda olan hərbi qulluqçusu **Paşa Həsənovun** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000